# AZƏRBAYCAN ƏDƏBİYYATINDA TƏNQİDİ REALİZM EPOXASI HAQQINDA İSA HƏBİBBƏYLİNİN ELMİ-NƏZƏRİ FİKİRLƏRİ

## *İ.Həbibbəylinin M.F.Axundzadənin irsinə, "nazimi-ustad" məsələsinə müasir ədəbiyyatşünas baxışları*



*Gülxani PƏNAH*

*(Əvvəli ötən saylarımızda)*

İsa Həbibbəyli məsələdən doğan sualın (Mirzə Fətəli Axundzadə nə üçün Məhəmməd Füzuli yox, amma orta əsrlər Şərq ədəbiyyatından "Firdovsi və Nizami və Cami və Sədi və Mollayi Rumi və Hafiz şairdirlər" qənaətində olmuşdur?) cavabını («Nəzm və nəsr» məqaləsində aşağıdakı kimidir: "Şeir əlahiddə bir bəxşi-ilahidir və maddeyi-qabiliyyəti şair xudadədədir və təhsil və tərbiyət o maddənin ancaq inbisaatına (genişlənməsinə) və əşarın artıq zinətinə bais olur. Belə maddə sahibləri çox nadir vücuda gələrlər". Yəni əsərlərində "Təhsil və tərbiyət" düşüncəsinin geniş olmasının adları çəkilən böyük sənətkarların əsərlərində əsas yer tutması, mühüm faktorlardan biri olmuşdur.

Həyatilik, yaxud da həyatsevərlik mənasında "nəşə artırıcı və həyəcanlandırıcı" olmaları Nizamiyə, Sədiyə və ya Camiyə münasibətdə diqqət mərkəzində dayanmışdır. Həmçinin Nizaminin, yaxud da Caminin əsərlərinin "hər kəs tərəfindən", yəni cəmiyyətin ən müxtəlif qütblərinin fikrincə bəyənilməsi də Mirzə Fətəli Axundzadənin onlar haqqında «nadir» şairlər kimi söz açmasına əsas vermişdir. Adı çəkilən şairlər bu cəhətdən əsl sənətkarlar kimi dəyərləndirilir. O, "Kritika". Yüksək İranın "Millət" qəzeti münşisinə» adlı məqaləsində fikrini bir qədər də konkretləşdirir: «Həm məzmun gözəlliyinə, həm də ifadə gözəlliyinə malik olan nəzm (Firdovsinin "Şahnamə"si, Nizaminin "Xəmsə"si, Hafizin "Divan"ı kimi) nəşə artırıcı və həyəcanlandırıcı olub, hər kəs tərəfindən bəyənilir... Onlar bəşər növünün fövqündə olub, filosofanə xəyal və ilham sahibləridir») verməyə çalışır.

Mirzə Fətəli Axundzadə nə məzmunla formanın vəhdətini pozanların, nə də buna əməl edənlərin sıralarında Füzulidən söz açmadığını, ancaq Nizami Gəncəvi, Firdovsi, Cami və başqalarının yaradıcılığındakı həyatilik, "nəşə artırıcı və həyəcanlandırıcı" olmaq mənasında xüsusi dəyər verdiyi keyfiyyətlərin Füzulinin əsərlərində görmədiyini, Füzulinin yaradıcılığındakı aşiqanəliyin Mirzə Fətəli Axundzadənin meyarları ilə üst-üstə düşmədiyini yazır.

Mirzə Fətəli Axundzadənin Mövlana Cəlaləddin Ruminin yaradıcılığını "məzmun gözəlliyi olub, ifadə gözəlliyinə malik olmayan nəzm" hesab etdyini, amma "yenə də şeir növündəndir" - deməli olduğunu, həm də ədibin böyük sənətkarlar cərgəsində adlarını və xidmətlərini uca hesab etdiyi həmin şairlərin də yaradıcılığına tənqidi ("Bunların da qüsuru budur ki, bir para məqamda izhari-fəzl üçün (ləyaqətin ifadə edilməsi üçün) xilafi-təbiəti adət (təbiətin xilafının əksinə) göftgu ediblər. (Söz deyiblər) Belə məqamlarda onların xəyalatına da şeir demək caiz deyil. Ancaq mənzumatiməqbulə və pəsəndidə (qəbul edilən, xoşa gələn) demək olar") yanaşdığını açıqlayır.

İ.Həbibbəyli etiraf edir ki, "Mirzə Fətəli Axundzadənin «izhari-fəzl üçün xilafi-təbiəti adət goftgu ediblər» dedikdə nəyi nəzərdə tutduğunu dəqiq müəyyən etmək çətindir. Çünki orta əsr şairlərinin yaradıcılığında insanın ucalığı və ləyaqəti əsas mövzudur. Çox ehtimal ki, Mirzə Fətəli klassik romantik ədəbiyyatda insanın reallıqdan çıxaraq qeyri-adi dərəcədə ideallaşdırılmasını "xilafi-təbiəti adət goftgu etmək" hesab etmişdir. Çünki klassik romantik poeziyadakı bədii obrazlarda ideallaşdırma həyatilikdən çoxdur. Janr məsələsində olduğu kimi, obrazlara münasibət baxımından da zaman dəyişmişdir. Realizm insanı həyatı proseslərin axarında təbiiliyi və sadəliyi ilə təsvir etməyi tələb edirdi. Mirzə Fətəli Axundzadə Qasım bəy Zakirin "qafiyyatında öz məhbubəsi ilə bir növ müxatibə (xitab edən) və mükalimə edən" (danışan) həyati obrazların canlandırılmasına valeh olduğunu bildirirdi. O, Zakirin «vaqeye və güzərişati və əhvali-müasirini və ətvari-piru cavanı bir növ ilə (həyati şəkildə - İ.H.) bəyan etməsinə» insanı "vəcdə və zövqə" gətirən ədəbi hadisə kimi dəyər vermişdir. Buradan belə nəticəyə gəlmək mümkündür ki, realizm prinsiplərini bəyan olunmasında və müdafiə edilməsində Mirzə Fətəli Axundzadə böyük söz ustadlarına da güzəşt etməmişdir. Nizaminin və Firdovsinin epik dastanlarındakı "təhsil və tərbiyət" - ibrətamiz mətləblər, ictimai motivlər Mirzə Fətəli Axundzadəyə onlardan "filosofanə xəyal və ilham sahibləri" kimi bəhs etməyə əsas vermişdir".

"Nəzm və nəsr" məqaləsində Molla Pənah Vaqif və Qasım bəy Zakirin şeirlərini təqdim edərkən də Mirzə Fətəli Axundzadə özünün şeirə dair tələblərini nəzərə çarpdırdığını (xəyalat, heyrətə bais olmaq, "ləzzət və təsir", şeirin şəkilləndirilməsi, canlı danışıq dili, vəcdə gətirmək, realist təsvirlər və şair) görür. Bu qənətə gəlir ki, Mirzə Fətəli Axundzadə xəyalatla, heyrətlə zəngin olan, sadə, canlı danışıq dilində yazılan, həyati təsvirləri olan, insanda bir zövq, həyəcan yaradan nəzmi şeir hesab etmişdir. Burada realizmin ön sıraya çəkildiyi, Mirzə Fətəlinin şeir haqqındakı görüşlərinin "şeirdə romantika ilə yanaşı, realizmin, həyati təsvirlərin, canlı danışıq dilinin olmasına" əsaslandığını bildirir.



İ.Həbibbəyli apardığı araşdırmalaar əsasən aşkar görür ki, "Mirzə Fətəli Axundzadə real həyati təsvirləri və sadə, təbii danışıq dili ilə insanı vəcdə və heyrətə gətirə biləcək şəkildə təsirləndirən nəzm nümunələrini əsl şeir hesab etmişdir. Şair deyil, "nazimi-ustad" adlandırdığı Məhəmməd Füzulinin şeirlərində isə dərin lirizm, yüksək şeiriyyət olsa da insanı vəcdə gətirən canlı danışıq dili ilə ifadə olunmuş təsirli real həyatı təsvirlər yoxdur. Daha doğrusu, Füzulinin şeirləri dərin romantik düşüncənin obrazlı bədii ifadəsindən yoğrulmuşdu. Mirzə Fətəli Axundzadə şeir (bütövlükdə realist ədəbiyyat - İ.H) haqqındakı prinsiplərinə uyğun gəlməyən şairləri də nəzm yazanlar hesab etmişdir. Tənqidçinin - ədəbiyyat nəzəriyyəçisinin ifadə etdiyi "məsava şairlər" sırasına qədim dövr və orta əsrlər ədəbiyyatından, Nizami-Firdovsi zamanından ta XIX əsrin ortalarına qədər yaşayıb-yaratmış çoxlu sayda şairlər daxildir".

Böyük mütəfəkkirin bütün fikir və mülahizələrinin dərin təhlilini verən İ.Həbibbəyli gəldyi nəticəni söyləyir: "Mirzə Fətəli Axundzadənin fikrincə, Məhəmməd Füzuli klassik romantik şeirin ustadı, yeni realist ədəbiyyatın nazimidir. Bu isə təkcə səhv, yanlışlıq, realizmin müdafiə olunması, nəzirəçiliyin qarşısının alınması demək olmayıb, həm də obyektiv reallıqdır".

Mirzə Fətəli Axundzadənin ədəbiyyat nəzəriyyəsində mühüm faktor olan klassik ədəbiyyata münasibəti, konkret olaraq "nazimi-ustad" Füzuli haqqındakı baxışı yüz ilə yaxındır ki, humanitar elmin nümayəndələrini mat vəziyyətində qoyduğunu, bu istiqamətdə araşdırmaların davam etdiriləcəyinə, yeni versiyalar da meydana çıxacağına şübhə etmir. Bütövlükdə isə böyük mütəfəkkirin ədəbiyyatda realizm, müasirlik, satira, roman və sair məsələlərə dair baxışlarını aradan uzun bir dövr keçməsinə baxmayaraq, bu gün üçün də məqbul sayır: "Mirzə Fətəli Axundzadənin ədəbiyyat nəzəriyyəsi barəsindəki fikirlərindən bundan sonra da ədəbiyyatın və ədəbiyyatşünaslıq elminin inkişafında istifadə olunması yalnız işin xeyrinə olar. Və Mirzə Fətəli Axundzadənin ədəbiyyat nəzəriyyəsi haqqındakı baxışları ayrıca bir tədqiqatın mövzusu ola bilər".

İ.Həbibbəylinin M.F.Axundzadənin elmi-nəzəri, ədəbi-tənqidi mülahizəri ilə bağlı araşdırmaları, təhlil və tədqiqatları, o cümlədən Füzuliyə münasibəti maraqlı olduğu qədər də dəyərlidir. Müasir tədqiqatçı alimlərimizin diqqətindən yayınmır. Nizami Cəfərov yazır: "Mirzə Fətəlinin ədəbi-nəzəri görüşlərini yenidən (və dərindən!) tədqiq edən İsa Həbibbəyli çox mühüm bir məsələyə - M.F.Axundzadənin dahi Füzuliyə münasibəti məsələsinə aydınlıq gətirməyə çalışmışdır. Və həmin mövzudakı məqalənin dəyəri ondadır ki, müəllif həmin məsələyə XIX əsrin dahi mütəfəkkirinin ümumi dünyagörüşü kontekstində baxmağı bacarmış və belə bir maraqlı nəticəyə gəlmişdir: "Mirzə Fətəli Axundzadənin fikrincə, Məhəmməd Füzuli klassik romantik şeirin ustadı, yeni realist ədəbiyyatın isə nazimidir. Bu isə indiyədək qeyd edildiyi kimi, səhv, sadəcə yanlışlıq, yaxud realizmin müdafiə olunması, nəzəriyyəçiliyin qarşısının alınması demək olmayıb, həm də obyektiv reallıqdır" (bax. "Ədəbiyyat tariximizin ustad dərsləri").

**2019**

